# "Diplomatic World Sweden" nəşri Azərbaycanda mina təhlükəsi ilə bağlı məqalə dərc edib

**4 Aprel - Beynəlxalq Mina Xəbərdarlığı və Mina Təhlükəsinə qarşı Mübarizə Günü münasibətilə "Diplomatic World Sweden" saytı Azərbaycanda mövcud mina təhlükəsinə həsr olunmuş məqalə dərc edib.**

AZƏRTAC xəbər verir ki, məqalədə vurğulanır ki, Azərbaycan üçün 4 aprel sadəcə təqvimdə bir tarix deyil, həyatlara son qoymağa davam edən və münaqişədən sonrakı bərpa prosesini ləngidən bir təhlükəni daim xatırladan bir gündür.

"Demək olar ki, otuzillik erməni işğalı dövründə Azərbaycanın 13 faizdən çox ərazisi piyada əleyhinə minalar və partlamamış hərbi sursatlarla çirkləndirilib. 2020-ci ildən bəri döyüşlər bitəndən sonra 387 nəfərdən çox mülki şəxs mina partlaması nəticəsində həlak olub və ya ağır xəsarətlər alıb. Ümumilikdə münaqişənin əvvəlindən indiyədək 3400-dən çox insan, o cümlədən yüzlərlə qadın və uşaq minaların qurbanı olub," - deyə müəllif qeyd edir.




Nəşr vurğulayır ki, minalar təkcə hərbi təhlükə deyil, həm də məcburi köçkünlərin geri qayıtmasına, infrastrukturun bərpasına və ətraf mühitin qorunmasına ciddi maneədir. Mütəxəssislərin qiymətləndirmələrinə görə, Azərbaycan dünyada ən çox minalanmış ölkələrdən biridir, belə ki, ölkə ərazisində hələ də təxminən 1 milyon 500 min mina mövcuddur.

Məqalədə həmçinin bildirilir ki, Azərbaycan minatəmizləmə işlərinə minlərlə mütəxəssis, xüsusi texnika və minaaxtaran itləri cəlb etməklə ciddi səylər göstərsə də, beynəlxalq dəstək son dərəcə məhduddur və ümumi resursların cəmi 5 faizindən azını təşkil edir.

Bundan başqa, qeyd olunur ki, Ermənistan hələ də mina sahələrinin tam və etibarlı xəritələrini təqdim etməkdən imtina edir və bu, humanitar əməliyyatların keçirilməsini və 800 000-dən çox məcburi köçkünün geri dönüşünü xeyli çətinləşdirir.

Məqalədə Azərbaycanın beynəlxalq təşəbbüslərdə fəal iştirakına xüsusi diqqət ayrılıb. Belə ki, ölkə konfranslar təşkil edir və humanitar minatəmizləmə işlərinin BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri Siyahısına 18-ci məqsəd kimi daxil edilməsini təklif edir.

Müəllif beynəlxalq ictimaiyyəti mənəvi deyil, eyni zamanda maliyyə, texniki və humanitar sahələrdə real dəstək göstərməyə çağırışla yazını tamamlayır. Bu dəstək ərazilərin minalardan təmizlənməsinə və insanların dinc həyata qayıtmasına imkan verəcək.

Qeyd edək ki, "Diplomatic World Sweden" nəşrinin əsas auditoriyası diplomatlar, siyasətçilər və İsveçdə akkreditə olunmuş diplomatik korpusun əməkdaşlarıdır.

Azərbaycan. - 2025.- 6 aprel (№66).- S.8.